# Alman alimin Nəsimi sevgisi




Klassik Azərbaycan ədəbi irsi əsrlərdir Qərb şərqşünaslığının da diqqət mərkəzindədir. Bu sahənin nüfuzlu araşdırmaçıları sırasında alman alimi, tanınmış nəsimişünas Mixael Hess (Michael Reinhard Hess) xüsusi yerə sahibdir.

Qeyd edək ki, tədqiqatçı almandilli məkanda mütəfəkkir şairin həyat və yaradıcılığına dair fundamental əsərlər yazıb, öz doktorluq dissertasiyasını bu mövzuya həsr edib.

Azərbaycan və bir sıra türk dillərini bilən M.Hess Nəsimi yaradıcılığının alman dilinə mükəmməl tərcüməçisi kimi də tanınır. Onun tərcüməsində dahi şairin şeirlər kitabı alman dilində işıq üzü görüb. Alimin klassik irsimizin nümayəndələri ilə bağlı çıxışları və məqalələri maraqla qarşılanır.

Alman tədqiqatçıda Nəsimi sevgisi İstanbulda çalışdığı vaxt yaranıb. Böyük Britaniyadan aldığı elektron məktubda Nəsimi şeriyyəti ilə ilk dəfə tanış olan alim şairin poetik dünyasına, ideyalarına necə vurulursa, o vaxtdan da Şərqin böyük mütəfəkkirinin irsini araşdırmağa başlayır.

M.Hess hesab edir ki, Azərbaycan mədəniyyətlərin toqquşduğu deyil, qovuşduğu, yaxınlaşdığı məkandır: "Bu ölkənin mədəniyyət, ədəbiyyat, incəsənət, musiqi nümunələri zəngindir. Azərbaycan ədəbiyyatının ən maraqlı xüsusiyyəti, zənnimcə, milliliyi qorumaq şərtilə, tarix və mədəniyyətlərin birləşməsi, bu harmoniyanın əks etdirilməsidir. Azərbaycanın çox maraqlı mədəniyyəti və ədəbiyyatı var ki, İmadəddin Nəsimi burada xüsusi bir yer tutur".

Alim Nəsimi şeirində bir dərinlik olduğunu qeyd edir: "Nəsimi şeriyyətində elə bir duyğu gücü var ki, məncə, hətta tərcümədə belə hiss edilir. Şairin şeirlərində o qədər təfərrüat, o qədər söz, o qədər dərin məna var ki, onun hamısını bir tərcümədə vermək mümkün deyil. Çünki onu vermək üçün minlərcə şərh vermək lazımdır. Böyük Nəsimi yaradıcılığının çəkisi ölçüsüzdür. Nəsiminin mənəvi irsinin dəyərini qiymətləndirmək çox çətindir. Məsələn, onun dövründə hakim olan dini ehkamdan fərqli Hürufilik təlimini yaydığına görə çəkdiyi əziyyət və faciəli ölümündən dini tolerantlıq barədə dərslər ala bilərik".

Tədqiqatçıya görə, Nəsimi şeriyyətinin bədii keyfiyyəti və fəlsəfi görüşlərinin dərinliyi onu öz müasirlərindən ciddi şəkildə fərqləndirir. Nəsimi dühası, onun yaradıcılığındakı keyfiyyət və fəlsəfi görüşlər XXI əsrdə də öz aktuallığını qoruyur. Bu da bir tərəfdən oxucu auditoriyası üçün bədii zövq, digər tərəfdən isə elmi araşdırmalar üçün yeni stimul deməkdir. Alimin sözlərinə görə, "Nəsimi ili" bu sahədə tədqiqatlara öz töhfəsini verəcək.

Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 47.